# MÜNDƏRİCAT


Klassik Alman fəlsəfəsi........................................6
İmmanuel Kant: həyatı və yaradıcılığı ................13
İmmanuel Kantın fəlsəfəsi –
mən nəyi bilə bilərəm..........................................23
Kantın hüquq, dövlət və etika haqqında təlimi ....37
İohann Qottfrid Herder və tarix fəlsəfəsi ...........50
İohann Fixtenin həyatı və fəlsəfəsi .....................56
Fixtenin fəlsəfəsi: subyektiv idealizm .................60
Fridrix Şellinq və onun fəlsəfəsi ........................71
Şellinq fəlsəfəsi və onun dörd mərhələsi .............75
Hegelin həyatı və yaradıcılığı .............................91
Ruhun fenomenologiyası ....................................99
Hegelin sosial-siyasi fəlsəfəsi ..........................112
Lüdviq Feyerbax: həyatı və yaradıcılığı ..........131
Feyerbaxın fəlsəfəsi ..........................................141
Artur Şopenhauer və onun fəlsəfəsi .................149
Fridrix Nitsşenin həyat və fəlsəfəsi ................160
Karl Marks ......................................................166
Fridrix Engels ..................................................178
Yeni Hegelçilik və yeni Kantçılıq .....................185
İmmanuel Kant: Aydınlanma nədir? (1784) ......195
Ədəbiyyat siyahısı ...........................................207

## *Klassik Alman fəlsəfəsi*

Fəlsəfə tarixinin prinsipial yeni inkişaf mərhələsi XVIII əsin sonu XIX əsrin əvvəllərini əhatə edən klassik Alman fəlsəfəsidir ki, bu dövr aşağıdakı filosofların fəaliyyətini əhatə edir – İmmanuel Kant, İohann Fixte, Fridrix Şellinq, Georq Hegel, Lüdviq Feyerbax. Onlarla fəlsəfəyə dərk edən subyektin tarixi, bu subyektin inkişafı və onun aktivliyi mövzuları gəldi.

*Klassik Alman fəlsəfəsinin nümayəndələri:*

Klassik Alman fəlsəfəsinin əsasını o dövrün məşhur beş filosofunun yaradıcılığı təşkil edir:

- İmmanuel Kant (1724–1804);
- İohann Fixte (1762–1814);
- Fridrix Şellinq (1775–1854);
- Georq Hegel (1770–1831);
- Lüdviq Feyerbax (1804–1872).

Bu filosoflardan hər biri zəngin ideyalara və nəzəriyyələrə malik olan özünəməxsus fəlsəfi sistem yaratmışdır.

Bir çox tədqiqatçı Klassik Alman fəlsəfəsinin yaradıcısı olaraq XVIII əsrin ən parlaq mütəfəkkiri İmmanuel Kantı qəbul edir.

Klassik Alman fəlsəfəsi bir növ həm özündən əvvəl gələn Avropa fəlsəfəsinin özünəməxsus yekunu, həm də daha sonrakı fəlsəfəsi fikir tarixinin vacib əsası və mənbəyi oldu. Bir növ keçmişlə gələcək arasında körpü rolunu oynadı.

*XIX əsr Alman fəlsəfəsinin xüsusiyyətləri*

XIX əsr Alman fəlsəfəsi ümumdünya fəlsəfəsinin unikal hadisəsidir. Onun unikallığı ondan ibarətdir ki, bu fəlsəfə 100 ildən bir qədər çox müddət ərzində aşağıdakılara nail olmuşdu:

- İnsanlığı əsrlər boyu incidən problemləri dərindən öyrənib, elə nəticələrə gəldilər ki, bu nəticələr fəlsəfənin gələcək inkişafını müəyyən etdi.
- Özündə o dövr üçün mövcud olan bütün fəlsəfi cərəyanları – subyektiv idealizmdən vulqar materializmə və irrasionalizmə qədər cərəyanları birləşdirdi.
- Ümumdünya fəlsəfəsinin “qızıl fonduna” daxil olan onlarla məşhur filosofun adının aşkar olunması (Kant, Fixte, Hegel, Marks, Engels, Şopenhauer, Nitsşe və s.) ilə yadda qaldı.

Klassik Alman fəlsəfəsi bir necə ümumi problemin həlli üzərində çalışdığı üçün biz bu fəlsəfə haqqında vahid sistem kimi danışa bilərik.

Bu fəlsəfə diqqətini ənənəvi problemlərdən (varlıq, təfəkkür, idrak və s.) insan mahiyyətinin öyrənilməsinə yönəltdi, diqqəti inkişaf problemi-

nə ayırdı, nəzəri-məntiqi bazanı zənginlədirdi və tarixə bütöv sistem kimi baxmağa başladı.

*Klassik Alman fəlsəfəsinin istiqamətləri və mərhələləri:*

Bütövlükdə XIX əsr Alman fəlsəfəsində növbəti dörd mərhələni fərqləndirmək olar:

- *Klassik alman fəlsəfəsi (XVIII əsrin sonu–XIX əsrin birinci yarısı);*
- *Materializm (XIX əsrin ortası və ikinci yarısı);*
- *İrrasionalizm (XIX əsrin ikinci yarısı və sonu);*
- *"Həyat fəlsəfəsi" (XIX əsrin ikinci yarısı və sonu).*

Klassik Alman fəlsəfəsinin özündə isə üç fəlsəfi istiqamət fərqlənirdi:

- *Obyektiv idealizm (Kant, Şellinq, Hegel);*
- *Subyektiv idealizm (Fixte);*
- *Materializm (Feyerbax).*

Klassik Alman fəlsəfəsi Avropa cəmiyyətində baş verən dəyişikliklərə reaksiya idi. Bu dəyişikliklərin baş verdiyi üç əsas istiqaməti fərqləndirmək olar:

– birincisi, İntibah dövrünün gəlişi ilə mənəvi inqilab baş verdi ki, bu da insanın düşüncə tərzini dəyişdi. Bunun nəticəsi bütün dünyaya səs salan böyük Fransız inqilabı (1789–1794) idi. Bu inqilab ətraf ölkələrdə yalnız ideoloji mənada yox,

həm real mənada, 1792-1815-ci illər arası baş verən müharibələrlə yadda qaldı. Bundan sonra nisbi sakitlik dövründə feodal monarxiya rejimləri öz qüvvələrini bərpa edə bildilər ki, nəticədə bir sıra burjua-demokratik inqilabları (1848-1849-cu illər) baş verdi və Avropa ölkələrinə yayıldı. Hətta bir sıra ölkələrdə inqilabi proletariatın çıxışları da baş vermişdi. Fransız inqilabı İntibah ideyalarının praktikada tətbiq oluna bilməsi illüziyasını yaratdı. Ancaq bu sadəcə illüziya idi, çünki proqressiv ideyalar gözlənilmədən terrora çevrildi. Təbii olaraq filosoflar bunu bilməyə bilməzdi. Nəticədə onlar bu əsaslar üzərində qurulan fəlsəfələrinə yenidən nəzər salmalı oldular.

– ikincisi, XVIII əsrin ikinci yarısında azad fikirlilik ilə din arasında mübarizə gücləndi. Belə ki, Böyük Fransız inqilabından sonra din İntibahda itirdiyi mövqeyi geri qaytarmağa cəhd etdi, ancaq sonra baş qaldıran yeni azadlıq mübarizəsinin təsiri ilə geri çəkilməyə məcbur oldu.

– nəhayət, üçüncüsü, aləmin dərk edilməsində kardinal dəyişikliklər baş verdi, elm, əsas da təbiətşünaslıq elmləri yarandı və dinamik formada inkişaf etməyə başladı. Yeni dövrün əvvəlində fizikada mövcud olan mexanika özünün ilkin dominantlığını itirdi. Onun əvəzinə təbiət elementlərinin keyfiyyət dəyişiklikləri haqqında elm olan kimya və fizikanın yeni bölmələri (maqnitizm və

elektrik haqqında təlimlər tezliklə elektromaqnitliyi öyrənən elmi təlimə çevrildi) yarandı. Bioloji təlimlər də olduqca tez inkişaf edirdi. Bu bioloji təlim təkamül haqqında fikirləri ümumiləşdirir və onun nəzəri əsasını yaradırdı.

*Klassik Alman fəlsəfəsinin xarakterik xüsusiyyətləri:* Klassik Alman fəlsəfəsinin mühüm xüsusiyyəti o idi ki, antik fəlsəfəsinin əsasını qoyduğu idrakın əsas metodu olan dialektik metodun bərpasını reallaşdırdı. Bu, Alman fəlsəfəsini İntibah dövr fəlsəfəsindən fərqləndirən əsas xüsusiyyət idi. Belə ki, İntibah dövr fəlsəfəsi əsas diqqəti metafizika məsələlərinə ayırırdı. İntibah dövr filosofları belə bir düşüncədən çıxış edirdilər ki, bütün hadisələr statik və dəyişməzdir. Avropa təfəkkürü üçün yeni metod olan dialektika hadisələri onların malik olduğu bütün mürəkkəblik ilə öyrənməyi nəzərdə tutur, o təsadüfi müşahidələr ilə kifayətlənmir və hadisələrə hissəvi yox, bütöv, tam baxışı əsas götürürdü. Yeni metodun işlənib hazırlanmasında əsas xidmət Hegelə aiddir, ancaq bunun bünövrəsini onun sələfi İ.Kant formalaşdırmışdı.

Klassik Alman fəlsəfəsi dialektikanın vahid konsepsiyasını müəyyən edir:

- Kantın "dialektikası" – insan idrakının: hisslərin, təfəkkür və insan əqlinin sərhəd və imkanlarının dialektikasıdır.

- Fixtenin dialektikası “mən”in yaradıcı aktivliyinə, əkslik olan “mən” və “qeyri-mən”in qarşılıqlı münasibətinə müncər edilən dialektikadır. “Mən” və “qeyri-mən”in mübarizəsi əsasında insanın özünüdərki inkişaf edir.
- Şellinq Fixtenin dialektik inkişaf barədə olan prinsiplərini təbiətə müncər edir, təbiət onda inkişaf edən ruhdur.
- Hegel tam inkişaf etdirilmiş və hərtərəfli idealist dialektikanı təqdim edir. O bütün təbii, tarixi və mənəvi aləmi proses kimi, yəni onlarda mövcud olan fasiləsiz hərəkət, dəyişkənlik, əsaslı dəyişmə və inkişaf, əksliklər, daimilikdə fasilələr, yeni ilə köhnənin mübarizəsi, istiqamətlənmiş hərəkət halında öyrənirdi.
- Feyerbax öz dialektikasında hadisələr arası əlaqələri, onların qarşılıqlı əlaqəsi və dəyişməsini, əksiliklərin vahidliyini məhz bu hadisələrin inkişafında görürdü (ruh və bədən, insan təfəkkürü və maddi təbiət).

Bu fəlsəfədə yalnız insan tarixi yox, onun mahiyyəti öyrənilirdi.

- Kant üçün insan mənəvi varlıq idi;
- Fixte insanın təsir gücünü, onun təfəkkürünün aktivliyini və insanın özünü dərk etməsini qeyd edir, insan həyatının quruluşunu əqlin tələblərinə uyğun nəzərdən keçirirdi;

- Şellinq obyektiv ilə subyektivin qarşılıqlı əlaqəsini göstərirdi;
- Hegel özünüdərkin və fərdi təfəkkürün aktivlik sərhədlərini daha geniş nəzərdən keçirir; fərdin özünüdərki onda nəinki xarici predmetlərlə, eləcə də, özünüdərklə əlaqəlidir. Nəticədə müxtəlif ictimai formalar yaranır.
- Feyerbax materializmin yeni formasını – antropoloji materializmi müəyyən etdi. Bu fəlsəfənin mərkəzində özü üçün subyekt, digəri üçün obyekt olan real insan dururdu.

Bütün klassik alman filosofları bu fəlsəfəni xüsusi fəlsəfi təlim, kateqoriya, ideya kimi nəzərdən keçirirdilər.

- Kant əsas fəlsəfi təlim kimi qneseologiyanı və etikanı fərqləndirirdi;
- Şellinq naturfəlsəfə, ontologiya kimi sahələri önə çəkirdi;
- Fixte fəlsəfədə ontologiya, qneseologiya, sosial-siyasi bölmələri fərqləndirirdi;
- Hegel fəlsəfi biliyin geniş spektrini müəyyən etdi. Bura təbiətin fəlsəfəsi, məntiq, tarix fəlsəfəsi, fəlsəfə tarixi, hüquq fəlsəfəsi, dövlət fəlsəfəsi, mənəviyyat fəlsəfəsi, din fəlsəfəsi, fərdi təfəkkürün inkişaf fəlsəfəsi və s. daxil idi.
- Feyerbax tarixin, dinin, ontologiya, qneseologiya və etikanın fəlsəfi problemlərini nəzərdən keçirirdi;



***İmmanuel Kant***
*(22 aprel 1724–12 fevral 1804)*

# *İmmanuel Kant həyatı və yaradıcılığı*

Kantın şəhəri Köniqsberq (indiki Kalininqrad) 1724-cü ildə Pregel çayı sahilində yerləşən üç şəhəri (Knayhop, Ayştaf və Löbinen) rəsmi olaraq birləşdirəndən sonra ortaya çıxmışdı. Məhz bu ildə də İ.Kant dünyaya gəlmişdi. Özündən əvvəlki iki qardaşının tez ölümündən sonra dünyaya gələn Kant ata və anasının böyük sevincinə səbəb olmuşdu. Ata və anası ona Bibliyadan olan Emanuel (Allah bizimlədir) adını verir. Düzdür, Kant sonralar bu adın yazılışında müəyyən dəyişiklik-

lər etsə də, bu adı sevə-sevə daşıyırdı. Kantın valideynləri çox dindar olub, pietizmə qulluq edirdilər.

Artıq gənc yaşlarında anası Kantın xüsusi istedadını hiss edir və təhsilini davam etdirməsi üçün Fridrix kollecinə göndərir. Kantın ilk müəllimi teologiya üzrə alim F.Şlüç olur. Buranı bitirdikdən sonra Kant 1740-cı ildə Köniqsberq universitetinə daxil olur. O dövrdə bu universitetdə dörd fakültə mövcud idi – teologiya, hüquq, tibb və fəlsəfə. Kantın bunlardan hansını seçdiyi dəqiq məlum deyil. Bu barədə heç bir məlumat qalmayıb. Fəlsəfəyə marağı Kantda professor Martin Knutsen yaratmışdı. Knutsen pietist və volfiançı idi. O həmçinin ingilis təbii elmləri ilə maraqlanırdı. Məhz o Kantı fizika üzrə iş yazmağa həvəsləndirmişdi.

1740-cı ildə Prussiya taxtına II Fridrix gəlir. Savadlı və ağıllı monarx olan Fridrix müxtəlif elmlərin inkişaf etdirilməsinə səy göstərir. Onun hakimiyyəti dövründə fəlsəfədə əsas nüfuz Kristian Volf elan olunur. O da öz növbəsində rasionalist Leybnitsin davamçısı idi. Elmi biliklər isə o dövrdə İsaak Nyutonun təsiri altında formalaşırdı.

Tələbəlik illərində Kantın maraq dairəsi formalaşır. O fəlsəfə və dinşünaslıq ilə yanaşı fizika, riyaziyyat və tətbiqi elmlər ilə maraqlanırdı. Kant özü haqqında deyirdi ki, “mahiyyətim etibarilə